DÜNYA

Pentaqon rəsmisi Ukraynada müharibənin qış boyu davam edə biləcəyini deyir

Noyabr 18, 2026



ABŞ müdafiə nazirinin müavini Elbric Kolbi

Moskva ən azı qış ayları boyunca Ukraynadakı işğalçı müharibəni davam etdirə bilər. Pentaqonun yüksəkvəzifəli rəsmisi NATO müttəfiqlərinə belə deyib. Bu arada Vaşinqton Rusiya ilə Ukrayna arasında atəşkəsə və sülh razılaşmasına nail olmağa çalışır.

ABŞ müdafiə nazirinin müavini **Elbric Kolbi** noyabrın 17-də Brüsseldə alyans üzvləri qarşısındakı çıxışında Kiyevin son vaxtlar Rusiya ərazisinin dərinliklərinə endirdiyi zərbələri tənqid edib. AzadlıqRadiosunun Avropa üzrə redaktoru **Rikard Yozvyak** yazır ki, onun bu fikirləri ABŞ və Ukraynanın müttəfiqlərinin etirazına səbəb olub.

Kolbi "Ramştayn qrupu"nun toplantısında danışıb. Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupu təxminən 50 ölkənin qeyri-rəsmi birliyidir. İlk danışıqlar Almaniyadakı ABŞ hərbi bazasında keçirildiyindən bu birlik qeyri-rəsmi adı ilə də tanınır.

Müdafiə nazirinin müavini deyib ki, **"qışın başlaması ilə Rusiya, görünür, həm canlı qüvvə toplamağa, həm də iqtisadiyyatını uzunmüddətli müharibəyə uyğunlaşdırmağa davam edəcək".** Onun sözlərinə görə, hər kəs münaqişənin uzanacağına hazır olmalıdır.

Kolbi ABŞ prezidenti Donald Trampın davamlı sülhü təmin edən şərtlərlə müharibəni dayandırmaq əzmində olduğunu vurğulayıb.

Trampın noyabrın 19-da Çində Rusiya prezidenti Vladimir Putin və Çin lideri Si Cinpinlə görüşü gözlənilir. Onların bu görüşdə Ukraynadakı müharibəni də müzakirə edəcəkləri ehtimal olunur.

Zərbələri effektiv saymır

Kolbi Ukraynanın son vaxtlar Rusiya ərazisinin dərinliklərinə endirdiyi zərbələri tənqid edib. Bu zərbələr Rusiyanın enerji obyektlərini və ölkənin elektron ticarət nəhəngi "Wildberries"in anbarlarını hədəf alıb. Kolbi söyləyib ki, bu hücumlar müharibənin başa çatmasına təkan vermək baxımından effektiv deyil və Rusiyanın cəbhə xəttində irəliləməsinin qarşısını almır.

"Üstəlik, xüsusilə "Wildberries" kimi mülki infrastrukturu hədəf alan zərbələr, çox güman ki, Rusiya ictimaiyyətinin müqavimət əzmini və Kremlin gərginliyi artırmaq istəyini daha da gücləndirib", – o bildirib.

Ukrayna bu həftə Rusiyanı qanunsuz ilhaq edilmiş Krım yarımadası ilə birləşdirən strateji Kerç körpüsünü vurub.

"Çox axmaq yanaşmadır"

ABŞ və Ukraynanın müttəfiqləri isə Kolbinin dediklərini rədd ediblər.

Almaniyanın müdafiə naziri **Boris Pistorius** bu tənqidi "çox axmaq yanaşma" adlandırıb. O, jurnalistlərə deyib ki, bunun əvəzinə **"Ukraynanın enerji, su və istilik təchizatı infrastrukturuna hər gün, hər gecə endirilən terror zərbələrini tənqid etmək daha yaxşı olardı".**

Böyük Britaniyanın müdafiə naziri **Ues Stritinq**in sözlərinə görə, Ukraynanın zərbələri Putinin müharibə maşınını zəiflətməyə, vaxt qazanmağa və insan həyatını qorumağa xidmət edir.

Ukraynanın baş naziri **Sergiy Koretski** noyabrın 16-da AzadlıqRadiosuna deyib ki, qış yaxınlaşdıqca Rusiyanın səyləri Ukrayna xalqının "ruhunu sındırmağa" yönəlib.

Buna da bax:

Ukrayna və Avropanın taleyi həll olunur: Rusiya ilə müharibə bitir?

Rusiya dizeli ABŞ-yə çatmadı, amma Moskva 'yeni alıcılar tapır'

Krım körpüsü qismən çöküb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur